AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# RESPUBLİKA FƏNN OLİMPİADALARI
## RESPUBLİKA MƏRHƏLƏSİ
## YARIMFİNAL TUR
**11.03.2017**

# AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT
# 9-cu SİNİF

**1.** *"Tərcüməçi də bir insandır. Onun da ətrafda baş verən hadisələrə özünəməxsus baxış bucağı var. Bu baxış bucağı istər-istəməz onun tərcümələrinə də təsir edir. Beləliklə eyni əsərin müxtəlif tərcümələri yarana bilər".* **Verilən nümunədə tərcüməçi ilə bağlı aşağıdakılardan hansı izah olunur?**
A) Üslubun əsərdən-əsərə görə fərqlənməsi.
B) Düşüncələrini istədiyi kimi ifadə edə bilməməsi
C) Başqa tərcüməçilərdən təsirləndiyi
D) Təcrübənin tərcüməyə təsir etdiyini
E) Tərcüməyə öz düşüncələrini qatdığını.

**2.** *"Axşamın düşməyinə az qalırdı ki, kəndə çatdım"* **– tabeli mürəkkəb cümləsinin baş cümləsi sadə cümlənin hansı növünə aiddir?**
A) şəxssiz cümlə
B) müəyyən şəxsli geniş cümlə
C) qeyri-müəyyən şəxsli cümlə
D) müəyyən şəxsli müxtəsər cümlə
E) ümumi şəxsli cümlə

**3. Nümunədə hansı durğu işarələri buraxılıb?**
*"İnsan qanadsız quşdur deyə mən düşünürdüm srağagün bu vaxt biz mən körpüsalanlar bir də Adil Zoğallı meşəsindəydik".*
A) ,– , – : , ,
B) , – , – – , ,
C) , – , : , ,
D) , – , – : ,
E) , – , : – : , ,

**4. Hansı cümlədə durğu işarəsi olub olmamağından asılı olaraq sintaktik təhlildə dəyişiklik olar?**
A) Təbiət İsgəndərdən heç nə əsirgəməmişdi.
B) Uşaqlar, məktəbdə müəllimlərə qayğı göstərin.
C) Biz yıxılana əl uzadırıq və bu əməldən ləzzət alırıq.
D) O suallara səlis cavab verəndə müəllimin ürəyi açılırdı.
E) Bu günün qalibi Zahiddir.

**5. Mübtədası sadə II növ təyini söz birləşməsi, xəbəri sadə III növ təyini söz birləşməsi ilə ifadə olunan müxtəsər cümləyə aid edilə bilməz.**
A) Müəyyən şəxsli cümlə ola bilər.
B) Tərkibində ara söz və xitab işlənə bilər.
C) Tabelilik əlaqəsinin 3 uzlaşma, 2 idarə növü işlənər.
D) Əmr cümləsi kimi işlənə bilməz.
E) Şəxssiz cümlə ola bilməz.

**6. Sintaktik əlaqə baxımından sxemdəki uyğunsuzluğu göstərin.**




A) 3 B) 1 C) 2 D) 5 E) 4

**7. Biri eyni cümlə üzvünün sualı deyil:**
A) haraya? B) harada?
C) haranı? D) haradan?
E) nə tərzdə?

**8. Hansı sözləri işlənmə vəziyyətinə görə həm ⎴ ^ , həm də ⎴ ⌒ kimi götürmək olar?**
1 2 3 4 5 6
Güldür, bildir, yazdır, qandır, ovdur, vaxtdır,
7 8
bəsdir, sildir
A) 1, 3, 4, 5 B) 2, 4, 5, 7 C) 1, 3, 6, 8
D) 2, 7, 8 E) 3, 4, 6

**9. Nümunədəki təsriflənən feilin kökü omonim olmaqla hansı nitq hissələrinə aid edilə bilər?**
*Qapıdakı tək ağac da*
*Yarpaq töküb qurumuşdur ...*
(S. Vurğun)
A) feil, sifət B) feil, feil C) isim, zərf
D) feil, qoşma E) isim, isim

**10. İki cümlədə mübtəda mürəkkəb adla, bir cümlədə mürəkkbə sözlə, bir cümlədə feili sifətlə, bir cümlədə isə məsdər tərkibi ilə ifadə olunmuşdur. Bu halda neçə cümlədə mürəkkəb mübtəda olacaqdır?**
A) 1 B) 2 C) 3 D) 4 E) 5

**11. Tələffüz şəklində verilmiş cümlələrdən birində "idi" hissəciyi işlənməyib.**
A) [Ətraf əlvan güllərə bürümmüşdü.]
B) [Qəlbimə qorxu dolu bir hiss dolubdu.]
C) [Uzaxda dayanan dosdum Əliydi.]
D) [Əsərdi ruhuma sərin bir küləx`]
E) [Yanımda igid əsgər durmuşdu]

**12. Birinin kökünü həm omonim, həm də çoxmənalı söz kimi götürmək olmur:**
A) yarıldı B) qolumuzdakı C) satıldı
D) tutuldu E) yayıldı

**13. Bağlayıcıların ardıcıl verildiyi cərgəni müəyyən edin:**
*1. Vergül tələb etməyən*
*2. Özündən əvvəl vergül tələb edən*
*3. Özündən sonra vergül tələb edən*
A) lakin, əgər, hərçənd
B) ilə, amma, ki
C) ilə, ancaq, halbuki
D) ki, lakin, madam
E) və, yəni, çünki

**14. Biri sifətin azaltma dərəcəsində deyil:**
A) qaraşın B) açıq-sarı C) uzunsov
D) alaqaranlıq E) göytəhər

**15. Verilənlərdən biri həm feil, həm sifət, həm də zərf kimi işlənə bilir?**
A) qoşa-qoşa B) dönə-dönə
C) hədələyə-hədələyə D) yamsılaya-yamsılaya
E) əsnəyə-əsnəyə

**16. Nümunədə işlənmişdir:**
*Üfüqlər qızarır al güllər kimi,*
*Günəş boy göstərir, açılır səhər.* (S. Vurğun)
1. metafor 2. təşbeh 3. epitet
4. təzad 5. inversiya 6. təkrir
A) 1, 2, 3 B) 3, 4, 6 C) 1, 2, 5
D) 4, 5, 6 E) 2, 3, 5

**17. Hansı bənd işarələnmiş sözlərdən heç birinin mənasına uyğun deyil?**
1. Xof eyləmədik atəşi-dəhhaşe-düvəldən.
2. Bədbəxt olan əfğani-yetiman hədər olmaz.
3. Bir zərrə belə qorxmayırız dəsti-əcəldən.
4. Türklər geriyə dönməyəcək müslih əməldən.
A) yetimlərin fəryadı
B) əcəl əli, ölümün yaxınlaşması
C) dövlətlərin dəhşətli hücumları
D) cahil, namərd adam
E) asayişi bərpa edən

**18. "Koroğlu ilə Bolu bəy" qolunun məzmunu haqqında doğru fikirləri seçin:**
1. Koroğlu Xotkarın oğlu Bürcü Sultanın onu tanıyacağını deyir.
2. Koroğlu Mehtər Murtuzu şeşpəri ilə öldürür.
3. Dünya xanım Hasan paşanın qızıdır və sonda Koroğlu onu da özü ilə Çənlibelə gətirir.
4. Bolu bəy Koroğlu ilə döyüşdə qalib gəlir və onun başına qılıncla zərbə endirir.
5. Dəmirçioğlu və Dəli Həsənin Koroğlunun arxasınca getməsinə Nigar xanım mane olur.
A) 2, 3, 4 B) 1, 3, 5 C) 2, 3, 5
D) 1, 2, 4 E) 1, 4, 5

**19. Mövzusuna görə məntiqi ardıcıllığı davam etdirin.**
*"Təbrizim", "Heydərbabaya salam", ...*
A) "Zeybək qızı" B) "Həyat sevgisi"
C) "Gələcək gün" D) "Vətən yaraları"
E) "Buludlar"

**20. Nümunədə işlənməmişdir:**

*Ağaclar dırmaşıb dəcəl uşaqtək*
*Dağın zirvəsinə yamacla, yolla,*
*Tamaşa etməyə bir cüt göz gərək* -
*Meşə bəhsə girib göylə, maşallah!* (Ənvər Rza)

1. metafor 2. epitet 3. inversiya 4. bədii sual 5. təşbeh

A) 3, 4 B) 1, 2, 3 C) 2, 4
D) 4, 5 E) 1, 3, 5

**21. H. Cavidin “Ana” əsərindən verilmiş bu sitat hansı obrazın dilindəndir və kim haqqında söylənilib?**

Dedim: get, miskin!
Çəkil get! – dedim,– ədəbsiz, həyasız!
Sonra çəkildim evə etinasız.

A) Səlmanın, Murad haqqında
B) İsmətin, Orxan haqqında
C) Səlimin, Orxan haqqında
D) Səlimin, Murad haqqında
E) İzzətin, Səlim haqqında

**22. Əsərlərin yarandığı ədəbi dövrləri nəzərə alsaq, hansı cərgədə uyğunluq pozulub?**

| | | |
|---|---|---|
| “Dağlar” | A | “Durnalar” |
| “Bomba” | B | “Qurbanəli bəy” |
| “Əkinçi” | C | “Bənövşəni” |
| “Durnalar” | D | “Koroğlu” |
| “Bahariyyə” | E | “Ağrımaz” |

**23. Uyğunluğu göstərin.**

1. Tərənnüm əsas yer tutur.
2. Təsviri janr da deyilir.
3. Əsas mətn personajlar arasında dialoqdan ibarət olur.

I. epik növ II. lirik növ III. dramatik növ

A) 1- I , 2-II , 3-III B) 1-III, 2-I , 3-II
C) 1-II, 2-I, 3-III D) 1-II, 2-III, 3-I
E) 1-I, 2-III, 3-II

**24. Y.V. Çəmənzəminlinin “Zeybək qızı” hekayəsinin məzmunu ilə bağlı səhvi müəyyənləşdirin.**

A) Darülfünun ingilislərin hind əsgərləri tərəfindən tutulmuşdu.
B) Midhəd əfəndinin atası Münir bəy oğlunun Anadoluya getməsinə razı deyildi.
C) Düşmən cəbhəsi türklər tərəfindən yarılmışdı.
D) Midhəd əfəndi zeybək qızını ilk dəfə İzmir cəbhəsində görmüşdü.
E) Midhəd əfəndi Anadoluya özü könüllü getmişdi.

**25. Təşbeh işlənmiş nümunələri seçin:**

1. Sözün də su kimi lətafəti var
   Hər sözü az demək daha xoş olar. (N.Gəncəvi)
2. Öpür qayaları, öpür daşları
   Bala sevgisiylə o ana dağlar. (B. Vahabzadə)
3. Gecələr yatmadan əvvəl sor özündən ki, “Bu gün
   Mən nə etdim məni yurddaş edən öz yurdum
   üçün? (B. Vahabzadə)
4. Bilmirdim,
   Məhəbbət bir cəllad təki
   Mənim gülüşümü öldürmüş bütün .
   (B. Vahabzadə)
5. Açıldı yazilər, bitdi çiçəklər,
   Gül ilə şol bənəfşə, süsən oldu. (Ş.İ. Xətayi)

A) 1, 2, 3 B) 1, 4 C) 1, 2, 4
D) 2, 3 E) 1, 4, 5